# Cəlilabad idmançıları nümunə göstərirlər

***Cəlilabadlı gənclər müstəqilliyimizin qorunması, ölkəmizin və rayonun iqtisadi, sosial və mədəni inkişafı, idman nailiyyətlərinin artırılması üçün var qüvvələri ilə çalışırlar. Sona yetməkdə olan 2021-ci ildə onların qazandıqları uğurlar xüsusilə fərəhlidir.***

…Xatırlayırıq ki, Heydər Əliyev Seyrangahının qarşısındakı meydanda keçirilən “Zəfər Günü” tədbirində yerli idmançıların nümunəvi çıxışları axıradək alqışlarla müşayiət olundu. Onların müxtəlif növlərdə göstərdikləri bacarıq və məharət hər kəsi heyran qoydu, bayram ovqatına ayrı rəng qatdı.

Həmin anlarda yadımıza hələ mart ayında Cəlilabad Rayon Gənclər və İdman İdarəsində Vətən müharibəsi iştirakçısı olmuş idmançılarla keçirilən görüş düşdü. Orada idmançılar böyük ehtiramla qarşılanmış, barıt qoxulu xatirələrini söyləmiş, bütün gənclərə nümunə göstərilmiş və diplomlarla mükafatlandırılmışdılar. Qərara alınmışdı ki, tez-tez şəhidlərin xatirəsinə yarışlar, turnirlər təşkil edilsin.

Həmin ərəfədə Vətən Müharibəsi Qəhrəmanı kapitan Rəşad Abdullayevin xatirəsinə həsr olunan onlayn şahmat turniri keçirilmişdi. Sonra isə ilboyu ayrı-ayrı növlər üzrə bu kimi yarışlar olub. Vətən müharibəsi şəhidi, ağırlıqqaldırma üzrə dəfələrlə respublika birinciliklərinin və beynəlxalq turnirlərin qalibi Ümid Qasımzadənin adını daşıyan yeni idman klubunun təmsilçiləri ağır atletika üzrə rayon turnirində yaxından iştirak edriblər.

Oktyabr ayında cənub bölgəsinə gələn Gənclər və idman naziri Fərid Qayıbov Lənkəran, Astara, Masallı, Biləsuvar rayonları ilə bərabər, Cəlilabad Olimpiya İdman Kompleksində də olub, yaradılmış şəraitlə maraqlanıb və müxtəlif idman növləri üzrə məşq proseslərini izləyib. Nazir idman qurğularında xidmət səviyyəsinin genişləndirilməsinin önəmini qeyd edib və bununla bağlı müvafiq tövsiyələr verib.

Həmin ay rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov gənclərlə görüşdə idmanın inkişafına göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən tədbirlərdən, idmanın kütləviliyinin təmin edilməsi məqsədilə görülən işlərdən danışaraq, idmançıları əldə etdikləri nailiyyətlər münasibətilə təbrik edib və uğurlarının davamlı olacağına əminliyini ifadə edib.

Bu il Cəlilabad idmançıları öz aktivlərini ölkə miqyaslı və beynəlxalq yarışlarda qazandıqları medallarla daha da zənginləşdiriblər. Güləşçi Ruslan Nurullayev Macarıstanın paytaxtı Budapeştdə yeniyetmə güləşçilərin dünya çempionatında üçüncü yeri tutub. Ruslan Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən UGİM-in yetirməsidir. Cəlilabadlı idmançı Erkin Osmanov Ukraynanın Xarkov şəhərində döyüş növləri üzrə yarışda bütün rəqiblərinə qalib gələrək Avropa çempionluğuna yüksəlib. UGİM-in yetirməsi Əsəd Ağayev Türkiyədə keçirilən boks üzrə kəmər döyüşündə rəqibinə qalib gələrək kəmərə sahib olub. Qəbələdə keçirilən MMA idman növü üzrə Avropa Kubokunda 6 nəfər Cəlilabad idmançısı ən yüksək nəticə göstərib. Onların hər biri qızıl kəmərə sahib olub. Doğma rayonda idmançılar sevinclə qarşılanıblar. Görüşdə UGİM-nin direktoru, Əməkdar məşqçi Natiq Rzayev və baş məşqçi Səid Atakişiyev də iştirak ediblər. İdarənin rəisi E. Hüseynov qalibləri təbrik edib və fəxri fərmanlarla mükafatlandırıb.

İyun ayında Gürcüstanın paytaxtı Tbilisi şəhərində Kyokuşin karate idman növü üzrə böyüklər arasında Avropa çempionatında 85 kq çəki dərəcəsində Azərbaycanı cəlilabadlı idmançı Səlahət Həsənov təmsil edib. Gərgin keçən yarışda ukraynalı, gürcüstanlı və litvalı rəqibləri üzərində qələbə qazanan idmançımız, finalda bolqar rəqibinə məğlub olaraq gümüş medal qazanıb. Bu yüksək nəticəsinə görə S.Həsənov 2022-ci ildə keçiriləcək dünya çempionatına vəsiqə qazanıb. Səlahət Həsənovun karyerası ərzində nəticələri: dünya çempionu (Azərbaycanda yeganə idmançıdır), 4 qat Avropa çempionu, 3 qat Avropa 2-cisi, 2 qat Avropa 3-cüsü.

Həmin ayda Rusiyanın Kazan şəhərində 21 yaşlılar arasında sumo üzrə Avropa çempionatında Cəlilabad UGİM-in yetirməsi Sadiq Əliyev üçüncü olub. Sentyabr ayında Polşanın Krotoşan şəhərində keçirilən sumo güləşi üzrə Avropa kuboku yarışlarında həmin UGİM-in yetirmələri Xəyyam Abdullayev və Röyal Ağamalıyev gümüş medallara sahib olublar. Kazanda kişilər arasında kəmər güləşi üzrə dünya çempionatında isə Xəyyam 3-cü yerə layiq görülüb. Qeyd edək ki, o, yunan-Roma güləşi üzrə gənclər arasında Azərbaycan çempionu, sumo güləşi üzrə Avropa mükafatçısıdır. Dəfələrlə beynəlxalq yarışların qalibi olub.

Noyabrda cəlilabadlı idmançı Namaz İbişov Rusiyanın Saratov şəhərində keçirilmiş karate üzrə "Olimpiya ümidləri" regionlararası turnirində uğurla çıxış edərək, çempion olub.

Komanda növlü yarışlarda da Cəlilabad idmançıları fərqlənə biliblər. Kazan şəhərində MDB-yə üzv ölkələrin I İdman oyunlarında oğlanlardan ibarət milli basketbol yığmamız (3×3) bürünc medal qazanıb. Yığmanın heyətində Cəlilabad UGİM-in yetirməsi Əkbər Məmmədli də uğurla çıxış edərək ən texnikalı oyunçu seçilib. Qeyd edək ki, Əkbər Məmmədli müxtəlif vaxtlarda yeniyetmələr arasında Avropa çempionu, dəfələrlə respublika çempionu olub. Avqustda Göygöl rayonunda basketbol idman növü üzrə keçirilən "Könüllülər kuboku"nun respublika turnirinin final mərhələsində Əməkdar məşqçi Şəhriyar Əsgərovun rəhbərlik etdiyi Cəlilabad komandası qalib olub.

Cəlilabadlı qızlar da basketbolu sevirlər. Bu il ABŞ səfirliyinin dəstəyi və təşkilatçılığı ilə bir neçə bölgədə, o cümlədən Cəlilabad şəhərində 12–14 yaşlı qızların basketbol məşqlərinə cəlb edilməsi və qızlar arasında basketbol yarışlarının və kamplarının təşkilinə start verilib. Bu məqsədlə Cəlilabad şəhər 2 saylı məktəbin bu yaş qrupundan olan 12 qızı məşqlərə cəlb olunub.

Zuğulba Tədris İdman Bazasında Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında respublika turnirinin proqramına daxil olan voleybol üzrə final yarışında “Cəlilabad” komandası 1-ci yeri tutub.

Yeri gəlmişkən, Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti Faiq Qarayev ölkə çempionatı ərəfəsində keçirilən brifinqdə deyib ki, “Azərreyl” klubunun bazasında ölkənin yığma komandasını formalaşdıracaq. Fərəhli haldır ki, artıq Cəlilabaddan boyu iki metrə qədər olan beş voleybolçu komandaya təqdim olunub. Onlara hər cür şərait yaradılacaq ki, yığmada möhkəmlənsinlər.

Futbol üzrə Region Liqasının Cənub zonasındakı dörd komandanın qapısını qoruyan qolkiperlərin hər biri futbola Cəlilabadda başlayıb. Bunlar Orxan Sadıqlı, Sabir Abbasov, Mövlan Kərimov və Babək Allahverdiyevdir. Bu liqada Cəlilabadın “Ümid” klubu uğurla çıxış edir. Mini futbol üzrə zona yarışlarında da Cəlilabad komandası qalib gəlib.

Onu da deyək ki, respublika miqyaslı bir sıra yarışlar öz idman ənənələri olan Cəlilabadda keçirilir. Məsələn, yayda Azərbaycan Karate-do Federasiyası və “Ayaz” Karate-do klubu ilə Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş Şotokan və Layt kontakt idman növləri üzrə respublika turniri uğurla təşkil olunub. Oktyabrda Cəlilabad rayonundakı Mərkəzi stadionda ("Məhsul" KKİC) "Zəfər günü"nə həsr edilmiş “Vətənin müdafiəsinə hazıram” Poliatlon çoxnövçülüyü üzrə gənclər arasında respublika çempionatının zona turniri keçirilib. Turnirin yekun nəticələrinə görə, Cəlilabad komandası 1-ci yerə, Biləsuvar komandası 2-ci yerə, Hacıqabul komandası isə 3-cü yerə layiq görülüb. Qalib komandalar Gənclər və İdman Nazirliyi tərəfindən diplomlarla təltif olunub.

Elə yarışlar da olub ki, orada Cəlilabad idmançıları mükafat kolleksiyasına, demək olar ki, bütünlüklə sahib olublar. Avqust ayında Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Hövsan Olimpiya İdman Kompleksində Kunq-fu üzrə Bakı birinciliyi və çempionatı buna misal ola bilər. Kadetlər, yeniyetmələr, gənclər və böyüklər arasında təşkil olunan yarışda 100-dək idmançı qələbə uğrunda mübarizə aparıb. Cəlilabad rayonunu “Cənub İdman Klubu”nun 22 nəfər yetirməsi təmsil edib və onlardan 11 nəfər 1-ci, 5 nəfər 2-ci, 1 nəfər isə 3-cü yerə layiq görülüb. Qusar Rayon Olimpiya İdman Kompleksində dünya çempionu Şəkərxan Əlismanovun şərəfinə yeniyetmələr arasında keçirilən XIII ənənəvi respublika turnirində Cəlilabad UGİM-in yetirmələri 5 medal qazanıblar. Hövsan İdman Kompleksində "Zəfər Günü"nə həsr olunmuş Kunq-fu idman növü üzrə respublika turnirinin komanda hesabında cəlilabadlılar 1-ci olublar, fərdi uçotda 15 nəfər 1-ci, 4 nəfər 2-ci və 1 nəfər 3-cü yerə layiq görülüb. Sərbəst güləşçilərin Şamaxıda təşkil olunan ölkə turnirində Cəlilabad idmançılarından 8 nəfəri 1-ci yerə layiq görülüb.

İlin son ayının yarışları da uğurlu olub. Bakıda böyüklər arasında keçirilən ölkə çempionatında Cəlilabad UGİM-in yunan-Roma güləşçiləri İbrahim Nurullayev, Ruslan Nurullayev və Ziya Babaşov müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerə çıxıblar. Şəhidlərin xatirəsinə həsr olunmuş boks üzrə rayon birinciliyində 140-dan artıq idmançı iştirak edib. Şəhid valideynləri də təltifolunma mərasiminə qatılıblar. Respublika miqyaslı yarışlar öncəsi bu birincilik qüvvələrə baxış xarakteri daşıyıb. Həziabad kənd tam orta məktəbinin idman zalında yunan-Roma güləşi üzrə UGİM-in açıq birinciliyində 65 yeniyetmə iştirak edib. Qaliblər rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlarla təltif olunublar.

Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş şahmat üzrə respublika birinciliyinin zona mərhələsində Cəlilabad UGİM-in 10 yaşlı dərnək üzvü Mirəli Salmanlı keçirdiyi 6 oyunun hamısında qələbə qazanıb. Daha sonra Cəlilabad Olimpiya-İdman Kompleksində ölkə miqyaslı Milli və Kəmər güləşi çempionatında 15 komandadan 150 idmançı iştirak edib. Yarışlarda layiqincə çıxış edən Cəlilabad güləşçiləri hər iki növdə 1-ci yerə çıxıblar. Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov onları və məşqçilərini təbrik edərək, yeni qələbə sevincləri arzulayıb. Görüşdə güləşçi Elmar İsmayılova “İdman ustası” döş nişanı və vəsiqəsi təqdim olunub.

Bir neçə gün öncə Gənclər və İdman Nazirliyinin və Avropa Şurası Gənclər Departamentinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Gənc liderlər və fəallar üçün insan hüquqları və demokratik vətəndaşlıq təhsili ilə bağlı giriş seminarları"nda fəal iştirakına görə Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Hüseynov xüsusi sertifikatla təltif edilib.







***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.- 28 dekabr.- S.14.